# Azərbaycan Milli Elmlər Akademiyasının nümayəndə heyəti Moskvada bir sıra görüşlər keçirib

Moskvada səfərdə olan, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik Akif Əlizadənin rəhbərlik etdiyi nümayəndə heyəti Rusiya Fundamental Tədqiqatlar Fondunda (RFTF) olub.

RFTF Şurasının sədri, akademik Vladislav Pançenko ilə keçirilən görüşdə fundamental elmlər sahəsində səmərəli birgə fəaliyyətin, Rusiya ilə Azərbaycan arasında texnoloji, sosial-iqtisadi sahələrdə yeni layihələrin həyata keçirilməsinin əhəmiyyəti vurğulanıb.

Görüş çərçivəsində AMEA, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (EİF) və Rusiya Fundamental Tədqiqatlar Fondu arasında əməkdaşlıq haqqında saziş imzalanıb.

EİF-in icraçı direktoru Elçin Babayev AZƏRTAC-a müsahibəsində bildirib ki, Rusiya ilə elm sahəsində çoxillik əlaqələrin inkişaf etdirilməsinə yönəldilmiş saziş çərçivəsində Azərbaycan və Rusiya alimlərinin hər iki ölkə üçün elmi əhəmiyyətli layihələri dəstəklənəcək. E.Babayev deyib: "Hazırda Rusiya tərəfi ilə gənc alimlərin dəstəklənməsi mexanizimləri üzərində işləyirik. Bu, birgə təcrübə və ixtisasartırma kurslarının, konfrans və simpoziumların təşkili yolu ilə həyata keçiriləcək. Elmi prioritetlər müəyyənləşdikdən sonra bu ilin sonunadək bütün elm sahələri üzrə təqdim olunacaq layihələrə müsabiqə yolu ilə baxılacaq. Layihələr yeni yaradılacaq ekspert komissiyalarının növbə ilə Bakıda və Moskvada keçiriləcək iclaslarında müzakirə olunacaq və daha əhəmiyyətli layihələr üçün maliyyə vəsaiti ayrılacaq". Fondun icraçı direktoru qeyd edib ki, indiyədək Türkiyə, Belarus və Fransada müvafiq fondlarla əməkdaşlıq sazişləri imzalanıb.

Akademik A.Əlizadənin rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Elmi və Texniki İnformasiya Mərkəzində (BETİM) də olub. Rəhbərlik etdiyi mərkəzin Azərbaycan ilə elmi və texniki sahələrdə sıx əməkdaşlığında maraqlı olduğunu bildirən BETİM-in baş direktoru Gennadi Uqrinoviç informasiya mübadiləsi, elmi əlaqələrin yaradılması və digər istiqamətlərdə birgə layihələrin həyata keçirilməsinin əhəmiyyətindən danışıb. G.Uqrinoviç Azərbaycan alimlərinin məqalələrinin mərkəzin nəşr etdirdiyi "İnformasiya və İnnovasiya" jurnalında dərc olunmasını təklif edib, bunun respublikada son illər əldə edilmiş elmi və texniki nailiyyətlər, innovasiya yenilikləri barədə məlumatların yayılması istiqamətində atılan daha bir addım olacağını vurğulayıb.

AMEA-nın prezidenti Azərbaycanda elmin və təhsilin inkişafı sahəsində həyata keçirilən dövlət proqramları və layihələr, dünyanın bir çox elmi mərkəzləri ilə qurulan sıx əlaqələr barədə məlumat verib. Akademik Rusiyanın elmi institutları, o cümlədən Rusiya Elmlər Akademiyasının O.Şmidt adına Yerin Fizikası İnstitutu və Geologiya İnstitutu ilə bağlanan müqavilələr əsasında birgə tədqiqatların aparıldığını diqqətə çatdırıb.

AMEA-nın nümayəndə heyəti gənc alimlər və Rusiyada təhsil alan azərbaycanlı tələbələrlə də görüşüb.

Görüşdə akademik A.Əlizadə AMEA-da həyata keçirilən yeniliklərdən, struktur dəyişikliklərindən danışaraq bildirib ki, artıq ötən ildən akademiya magistratura şöbəsinə qəbul keçirir və bu ildən qəbul üzrə elmi istiqamətlərin sayı xeyli artırılıb. Akademik AMEA-da yaradılmış yeni elmi institutların, xüsusilə Qafqazşünaslıq İnstitutunun Azərbaycan tarixinin, eləcə də Qafqaz regionu ilə əlaqələrin sistemli tədqiqinə şərait yaratdığını diqqətə çatdırıb.

Daha sonra akademik A.Əlizadə gənc alimlərin və tələbələrin suallarını cavablandırıb.

***Fəridə ABDULLAYEVA,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*Moskva*